2019.- 11 iyul.-S.3.



# 14 iyuldan başlayan yol

## Azərbaycanda Heydər Əliyev siyasətinin alternativi yoxdur



**Ulu öndər Heydər Əliyev Azərbaycan xalqı və dövlətçiliyi qarşısında böyük xidmətləri olan dahi şəxsiyyətdir. Dünya şöhrətli siyasətçi istər müstəqilliyimizin qazanılmasından sonra, istərsə də sovetlər birliyi dövründə Azərbaycanda hakimiyyətə gəlməsi ilə xilaskarlıq missiyasını həyata keçirib. Yaşlı və orta nəsillərin də vurğuladığı kimi, SSRİ dövründə iqtisadi tənəzzül yaşayan Azərbaycan məhz ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə intibah dövrünə qədəm qoyub.**

Belə ki, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il 14 iyul tarixli plenumunda Heydər Əliyev Mərkəzi Komitənin birinci katibi seçilib. Bu, Azərbaycanın yeni tarixində güclü lider və rəhbər kimi yer tutacaq, Azərbaycanın inkişafı naminə saysız xidmətlər göstərəcək şəxsiyyətin hakimiyyətə və böyük siyasətə gəlişi idi. Bu andan etibarən o, 1982-ci ilə qədər Azərbaycan SSR-ə rəhbərlik edib. Ümummilli liderin respublikaya rəhbərlik etdiyi dövrdə idarəçiliyin möhkəmlənməsi, kadrlara qarşı tələbkarlığın artırılması istiqamətində tədbirlər görülüb. Bunun nəticəsində ölkədə iqtisadi-sosial sahədə böyük nailiyyətlər əldə edilib.

Əgər 1969-cu ildə Heydər Əliyev rəhbər seçiləndə Azərbaycan o zamankı SSRİ-nin ən geridə qalmış respublikası sayılırdısa, artıq iki il sonra, yəni 1971-ci ildə Azərbaycan inkişafın sürətinə görə SSRİ-də ən qabaqcıl bir respublikaya çevrilib. 1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilib. Ümummilli lider Heydər Əliyev hələ sovet dövründə böyük uzaqgörənliklə və müdrikcəsinə Azərbaycanın gələcək müstəqilliyinə hərtərəfli zəmin yaradıb. 1993-2003-cü illərdə ulu öndər Heydər Əliyevin mükəmməl idarəçilik məktəbi sayəsində ölkəmiz keçid dövrünün çətin labirintlərindən uğurla çıxıb. 1996-cı ildən Azərbaycan yenidən dirçəliş mərhələsinə qədəm qoyub. 1996-2003-cü illərdə ölkəmizdə bütün makroiqtisadi göstəricilər 2-3 dəfə artıb, ölkədə 3 min yeni sənaye müəssisəsi yaradılıb.

Düz 50 il bundan öncə -14 iyul 1969-cu ildə ulu öndərin ölkə rəhbərliyinə gətirilməsi ilə əsası qoyulan yol, müəyyənləşdirilən siyasət, ümummilli lider Heydər Əliyevin ideya və idarəçilik məktəbi 2003-cü ildən sonra da Azərbaycana xidmət edib. Dahi şəxsiyyətin layiqli davamçısı Prezident İlham Əliyev Azərbaycanı Heydər Əliyev yolu ilə apararaq regionun lider dövlətinə, dünyada söz və nüfuz sahibinə çevirib.

**Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov** mövzu ilə bağlı "Kaspi" qəzetinə açıqlamasında bildirib ki, əgər Heydər Əliyev olmasaydı, Azərbaycan olmazdı. Millət vəkilinin sözlərinə görə, Heydər Əliyev fəaliyyətinin hər bir dövründə xalqımızın mənafeyinə xidmət edib: "1969-cu il 14 iyuldan başlayan böyük inkişaf yolu Azərbaycanın gələcək tərəqqisinin əsası oldu. Həmin tarixdə ulu öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsi xalqımızın həyatında dönüş nöqtəsi oldu. Çünki, 1969-cu ilədək Azərbaycan SSRİ-nin tərkibində bütün sahə və istiqamətlər üzrə ən geridə qalmış ölkələrin başında gəlirdi. Amma Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il 14 iyul plenumunda Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi təyin olunması respublikamızın tarixində dönüş nöqtəsi oldu. Məhz bu tarixdən sonra bütün sahələrdə həyata keçirilən islahatlar, görülən tədbirlər respublikamızın inkişafını təmin edən amil oldu. Qısa müddətdə Azərbaycan SSRİ səviyyəsində sənaye istehsalının artım sürətinə görə ilk yerdə qərarlaşdı. Bununla yanaşı, kənd təsərrüfatı sənaye təməli üzərində inkişaf etdirildi və istehsal olunan məhsulların orta illik həcmi mütəmadi surətdə artırıldı".

Komitə sədri deyib ki, hakimiyyətinin ikinci dövründə də ulu öndər Heydər Əliyev xilaskarlıq missiyası ilə xalqının yanında olub: "1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ulu öndərimiz Azərbaycanı məhv olmaq təhlükəsindən xilas etdi. Heydər Əliyev ictimai-siyasi sabitliyi bərpa etdikdən sonra Azərbaycanın inkişaf strategiyasını müəyyənləşdirdi. Hazırda bu strategiyanın Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi nəticəsində Azərbaycan böyük nailiyyətlərə imza atır. Bu, bir daha təsdiqləyir ki, Azərbaycanda Heydər Əliyev siyasətinin alternativi yoxdur".